Elmi Xəbərlər Jurnalı Nömrə 5, 2025 224-230
DOI:10.30546/gdu.5.2025

## TƏLİM-TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ

UOT:80.

# DİL TƏLİMİNDƏ ÜSLUBİ ƏHƏMİYYƏTLİ MƏSƏLƏLƏR: ZƏNGIN SÖZ , İFADƏ EHTİYATI VƏ ZƏRİF SƏSLƏNMƏ

***dosent Quliyeva Tahirə Əbdürrəhman qızı***
***Gəncə Dövlət Universiteti***
***Gceferova@rambler.ru***

**Xülasə:** *Üslubiyyat nitq üslublarını, üslubi priyomları və dilin ifadəlilik vasitələrini və onların ifadə olunan məzmuna münasibətini tədqiq edən dilçilik şöbəsidir.Burada nitq üçün son dərəcə önəmli olan dil vahidlərinin hiss–həyəcan və ifadəlilik, məna çalarlarını təyin etmək, praktik üslubiyyatı (üslubi normaları) öyrənmək və tətbiq etməkdir.*

**Açar sözlər:** Azərbaycan dili təlimi, proqram, dil və nitq, praktik üslubiyyat, üslubi norma
**Ключевые слова:** обучение, программа Азербайджанского языка, язык и речь, практическая стилистика, стилистическая норма.
**Key words:** training, Azerbaijani language program, language and speech, practical stylistics, stylistic norm

”İfadə tərzi, gözəl danışmaq, müraciət vasitəsi, səliqə və s. kimi məzmunlar bildirən ərəb mənşəli ”üslub” sözü dilimizdə hələ orta əsrlərdən işlənməyə başlamış və bütün Şərqdə olduğu kimi,Azərbaycanda da geniş yayılaraq*”Bəlağət, İnşa, Fəsahət”* kimi elmlərin yaranmasına əsas vermişdir*”***(6,s.7).**

1908-ci ildə ilk olaraq Hafiz Məhəmmədəmin Şeyxzadə “Fəsahət və bəlağət, fənni inşa və kitabət” adlı dərslik yazmışdır.Bu kitab dövrü üçün üslubiyyata dair (108 səhifəlik) gözəl bir metodik vəsait olmuşdur və dil müəllimlərinə Azərbaycan dili tədrisinin keyfiyyətini yaxşılaşdırmaq, şagirdlərlə aparılacaq üslubiyyat məşğələlərinin keyfiyyətini yüksəltmək işində xeyli kömək etmişdir. Metodik bir əsər olmuşdur. Həmin kitab üç fəsildən ibarətdir:

Birinci fəsil “Fənni inşa və kitabət” sözünü izah etməklə başlayır. Müəllif yazır ki ”....Kitabət, lüğətdə yazı yazmaq mənasındadır. Fəqət islahda isə məna anlaşılacaq surətdə şəxsin yazı yazmasıdır.Daha doğrusu, mənaya dəlalət etmək şərti ilə qəvaidə müvafiq fikrə mülayim və səmə mütabiq tərzdə təhrifən ifadeyi-məram deməkdir. Əgər yazılan kəlimat səlis və vazeh olmazsa, ondan məna çıxarmaq müşkül və bəlkə qeyri-qabildir. Kitabət və inşa, əlfazi-mütəradifədən, yəni ikisi bir mənaya dəlalət etməkdə isə də, kitabət üsuli-qələmə, yəni hökumət dairələrində cari olan rəsmə müvafiq yazı yazmaq; inşa isə qəvaidi-ədəbiyyə mütabiq olmaq şərti ilə təsviri -məram və icadi-kəlam eyləməkdən ibarətdir*”***(9.s,261).**

Kitabın ikinci fəslində fəsahət və bəlağətdən danışılır: ”...Bəlağət”- bir məramın hüsni-surətdə ədası, düzgün və sənətli ifadə olunması deməkdir. Sonra elmi bəlağətin mənşə və məxəzindən bəhs edilir, təşbeh, məcaz, kinayə və istiarə kimi bədii təsvir vasitələri şərh edilir.Daha sonra elmi-bəyanın izahı verilir: elmi bəyan- təsviri-məram və bəyani əfkardə kəlam daha yığcam və daha zəngin vermək yollarını öyrədir;elmi-bədii - kəlamın ləfzi və mənəvi təzyinatından bəhs edən fəndir; fəsahət-bir dilin düz və xətasız, asanlıqla söylənib yazılması deməkdir” **(9.s,261-262).**

DOI:10.30546/gdu.5.2025

1919-cu ildə yazılmış”Ədəbiyyat dərsliyi” kitabının müəllifləri ***H.Cavid və A.Şaiqdir***. Bu dərslikdə müzəyyən və ali üslublardan ancaq ikisi – “üslubi-sadə” və “üslubi-müzəyyən əsas götürülmüşdür.

1933-cü ildə ***A.Tağızadə və X.S.Xocayevin*** müəllifliyi ilə ”Müxtəsər üslubiyyat” adlı dərslik yazılmışdır.

Görkəmli dilçilər, eləcə də metodist alimlər üslubiyyatla bağlı belə bir qənaətə gəlmişlər ki,

“...Dil vahidlərinin müxtəlif ifadəlilik imkanlarını, onların üslubi keyfiyyətlərini öyrənən elmə üslubiyyat deyilir”**(3.s,11).**

“...Üslubiyyat dilin ifadəlilik vasitələrinin məqsədəuyğun surətdə istifadəedilmə qayda-qanunlarından, xüsusiyyət və əlamətlərindən, ifadə vasitələrinin sistem təşkil etməsi xüsusiyyətlərinə görə formalaşan müxtəlif üslubların əlamətdar cəhətlərindən bəhs edən bir elmdir*”* **(2.s,24).**

“...Üslubiyyat nitq üslublarını, üslubi priyomları və dilin ifadəlilik vasitələrini və onların ifadə olunan məzmuna münasibətini tədqiq edən dilçilik şöbəsidir”**(5. s, 8).**

“...Məntiqi olaraq, “üslubi fonetika”,“üslubi leksika”, “üslubi morfologiya”, “üslubi sintaksis” anlayışları özünü doğrultmur,çünki əgər üslubiyyata materialı fonetika, morfologiya və sintaksis verirsə, onda bu üslubiyyat sahələri “fonetik üslubiyyat”, “leksik üslubiyyat”,“sintaksis üslubiyyat” terminləri ilə əvəz edilsə, daha məqsədəuyğun sayılar” **(1. s, 11).**

Üslubiyyata verilən ayrı-ayrı təriflər bir daha onu göstərir ki, filologiyanın bu sahəsi dil materialını xüsusi bir istiqamətdə təhlil edən bir elmdir.Buna görə də, üslubiyyat deyərkən dil üslubları haqqında, müxtəlif nitq vasitələrinin işlədilməsinin qanunauyğunluğunu öyrənən elm başa düşülməlidir.

1992-ci ildə ***Prof. A.Qurbanovun*** nəşr etdirdiyi “Dil və üslub” əsəri də öz məzmunu və mahiyyəti, elmi yeniliyi ilə diqqəti xüsusi olaraq cəlb edir. Əsərin məziyyətlərindən biri də budur ki, tədqiqatçı linqvistik üslubiyyatın təkcə əlamət və xüsusiyyətlərindən danışmaqla kifayətlənməmiş, həmçinin onun növləri haqqında da məlumat verib göstərmişdir ki, dilçilik üslubiyyatının mövzu və məqsədindən asılı olaraq aşağıdakı növləri meydana gəlmişdir: a) ümumi və xüsusi üslubiyyat; b) nəzəri və təcrübi üslubiyyat; c) təsviri, tarixi və müqayisəli üslubiyyat **(8. s,161).**

***Dilçilik üslubiyyatının ciddi tədqiqata ehtiyacı olan məsələlərdən biri də praktik üslubiyyatdır***.Praktik üslubiyyatın başlıca vəzifəsi üslubi normaları öyrənmək və tətbiq etməkdir.

Görkəmli üslubiyyatçı ***M Kojina*** yazır: **“**Praktik üslubiyyatın vəzifəsi tədbiqi normativ fənn kimi tədris və mətbuat vasitəsi ilə nəzəri üslubiyyatın prinsiplərini həyata keçirməkdir.... praktik üslubiyyat danışanı üslubi duyma əsasında tərbiyə etməlidir, onu bu və ya digər funksional üslubun normaları ilə tanış etməlidir” Bu üslubiyyat dilin üslubları haqqında ümumi məlumatları, dil vasitələrinin emosional-ekspressiv boyalarını, dil vasitələrinin sinonim-liyini, ədəbi dilin üslubi normalarını və fərdi üslubları əhatə edir. Praktik üslubiyyat şəraitdən, məzmun və məqsəddən asılı olaraq nitqin müxtəlif imkanlarını, dilin bədii keyfiyyətlərini öyrənir” **(5.s. 11).**

Praktik üslubiyyatın əsas məqsədi bədii mətnləri təhlil etmək, dilin leksik, morfoloji və sintaktik üslubi rəng və ayrıntılarını açıqlamaqdır. Onun əsas vəzifəsi üslubi normaları öyrənmək və tətbiq etməkdir. Belə olduqda, üslubi normalar nitqin *düzgünlük, dürüstlük təmizlik ifadəlilik, rəngarənlilik, münasiblik* kimi xüsusiyyətlərinin yaranmasına kömək göstərir.

DOI:10.30546/gdu.5.2025

Praktik üslubiyyatın məqsəd və vəzifələri aşağıdakı problemlər üzrə dəqiqləşdirilir və istiqamətləndirilir:

1) Praktik üslubiyyat funksional üslublarla bağlı olduğuna görə onlar haqqında ümumi məlumat verməlidir, çünki dil vahidlərinin nitq prosesində seçilməsi və onlardan istifadə bu və ya digər funksional üslubun rəngləri və boyaları ilə əlaqədar mümkündür.

2) Praktik üslubiyyatın ikinci vəzifəsi nitq üçün son dərəcə önəmli olan dil vahidlərinin hiss – həyəcan və ifadəlilik, məna çalarlarını təyin etməkdir, yəni emosional və ekspressiv və həm də emosional-ekspressiv fərqləndirmələrini.

3). Praktik üslubiyyatın zəruri vəzifələrindən biri sinonimik dil vahidlərini, yəni sinonim sözlər və sinonim cümlə növlərini və sinonimik morfoloji vasitələri-şəkilçiləri öyrənmək və ortaya çıxarmaqdır ki, bu da nitq prosesi, funksional üslubların fəaliyyəti zamanı gerçəkləşə bilər. **(1,s.48)**

Bundan da belə aydın olur ki, üslubiyyatın əsas vəzifəsi dili bütün struktur boyu öyrənməkdir, yəni həm səsləri, həm formaları, həm işarələri və onların ayrı-ayrı hissələrini.

***D.Rozental*** praktik üslubiyyatın mövzusuna aşağıdakı məsələləri daxil edir:

1. Dil üslubları haqqında məlumat
2.Dilin ekspressiv-emosional rəng bildirən təsvir vasitələri
3.Dil vasitələrinin sinonimliyi **(10, s.10)**

Buna görə də üslubiyyat deyərkən dil üslubları haqqında, müxtəlif nitq vasitələrinin işlədilməsinin qanunauyğunluğunu öyrənən elm başa düşülməlidir.

Praktik üslubiyyata aid aid məsələlərdən biri də orta məktəbdə ana dilinin tədrisi ilə bağlı *üslubiyyat məşğələləridir.*Əgər qrammatik məşğələlərin məqsədi dilin ümumi normalarını öyrənmək yolu ilə şagirdlərə düzgün nitq mənimsətməkdirsə, üslubiyyat məşğələlərinin məqsədi də fikir və hisslərimizin rəngarəng cəhətlərini ifadə etmək üçün dilin ixtiyarında olan bütün vasitələri öyrənməklə nitqin aydın və dəqiqliyini təmin etməkdir.

Proqramda V sinifdən başlayaraq XI sinfə qədər Azərbaycan dilində əməli yazılar ucun xüsusi saatlar ayrılmışdır. Lakin muşahidələr onu gostərir ki, muəllimlər əməli yazılar üçün ayrılan bu saatlardan səmərəli istifadə etmirlər. Əvvəla, proqramda əməli yazılar ucun muəyyən edilən saatlar cox azdır. Orta məktəbi qurtaran bəzi şagirdlərin ərizə, tərcumeyi-hal, protokol və s.yaza bilməmələrini nəzərə alaraq, muəllimlərin bu sahəyə diqqət yetirmələri vacibdir. Proqramda muxtəlif siniflərdə şagirdlərə nəyi öyrətməyin lazım olduğu qeyd edilmişdir. Məsələn, V sinifdə əməli təlimat (hansı işi necə yerinə yetirməli), elan, VII sinifdə divar qəzeti üçün qeydlər, gorulmuş iş haqqında hesabat, VIII sinifdə ərizə, protokol, tərcumeyi-hal (bu əməli yazılar ucun standart formanın, ştampların xarakterik olması), IX sinifdə protokol (nisbətən murəkkəb forması),hesabat (gorulmuş konkret iş uzrə), arayış, X-XI siniflərdə etibarnamə,tərcumeyi-hal, bəyanat və b. əməli yazıların adları qeyd olunmuşdur. Lakin Azərbaycan dili dərsliklərində əməli yazı numunələrinə təsaduf edilmir.

X-XI sinif şagirdləri ucun yazılmış “Azərbaycan dili dərsliklərində ərizə, arayış, bildiriş, akt, etibarnamə, muqavilə kimi əməli yazı numunələri oz əksini tapmışdir. Hər sinif dərsliyində bu cur əməli yazı numunələrinin verilməsi cox faydalı olardı.

***Ə.Əfəndizadənin*** "Orta məktəbdə imla" (Bakı, 1993), ***Z.Əliyevanın*** "İfadə yazı ucun mətnlər" (Bakı, 1974) kitablarında da əməli yazı numunələrinə təsaduf olunmur. ***M.Aslanovun*** "İfadə yazı mətnləri" (Bakı, 1974) kitabında ərizə, tərcumeyi-hal, vəkalətnamə numunələri verilmişdir.

Son illərdə ***Hüseyn Hüseynovun*** “Əməli yazılar” (Bakı,1995) kitabcası isə ancaq bu məsələyə həsr olunmuşdur. Muəllimlər yeri gəldikcə mənbələri göstərilən əməli yazılardan

DOI:10.30546/gdu.5.2025

istifadə edə bilərlər. Əməli yazıları elə öyrətmək lazımdır ki, orta məktəbi qurtaran hər bir şagird onlardan istifadə etməyi bacarsın.

Son illərdə ***Şamil Sadiq, Elxan Nəcəfov və Arif Əsədov*** tərəfindən hazırlanmış "Azərbaycan dili" kitabında kifayət qədər əməli yazı numunələri

verilmişdir Muəllimlər bu numunələrdən geniş istifadə edə bilərlər. Müxtəlif usullardan istifadə etməklə əməli yazılar dərs prosesində yoxlanılır və noqsanlar aradan qaldırılır**.(11,s.49)**

***Kamran Əliyev*** abituriyentlər üçün Azərbaycan dili dərsliyində işgüzar sənədlərin dili barədə məlumat verərək qeyd edir ki, "... bu sənədlər xüsusi dövlət əhəmiyyəti daşımır, konkret məsələ ilə bağlı tərtib edilir.İşgüzar sənədlər bunlardır: ərizə, tərcümeyi-hal, izahat, elan, bildiriş, reklam, anons, afişa, arayış, protokol, rəy, teleqram, annotasiya, akt. İşgüzar sənədlər həcmcə, adətən, rəsmi sənədlərə nisbətən kiçik olur və onlarda bəhs olunan məsələ barəsində daha konkret, daha aydın məlumat verilməsi, həmçinin imla xətalarının olmaması bu cür sənədlərin mükəmməlliyini, yararlılığını müəyyən edir.İşgüzar sənədlərin hazır formaları olur ki, bu və ya digər məsələ ilə bağlı göstərişlər həmin hazır formalra yazılır.Bu ona görə vacibdir ki, sənəddə artıq sözlər, ifadələr işlədilməsin, imla xətalarına, cümlə qüsurlarına yol verilməsin.Sənədlərin savadlılıq dərəcəsi cəmiyyətin mədəni səviyyəsini göstərir **(4, s.111**).

Demək, yuxarıda qeyd olunan fikirlərdən belə qənaətə gəlmək olar ki, sözü seçib öz yerində düzgün işlətmək, sözün məna çalarlarını mətndə nəzərə almaq, fikri daha təsirli ifadə edən vasitələr tapmaq imkanlarını öyrənmək üslubiyyatın vəzifəsidir.

Mövcud durumda üslubiyyat üzrə məktəb kursunda proqramın tələbinə uyğun olaraq I yarımildə "Üslubiyyat haqqında məlumat","Azərbaycan ədəbi dilinin üslubları", "RNİ: əməli yazı (referat)","Bədii üslub nədir?", "Sözün poetik funksiyası (poetizm)", Keçilmişlərin təkrarı","I yarımildə keçilənlərin testlərlə yoxlanması" movzuları daxil edilmişdir. II yarımildə məktəb kursunda "Üslubiyyat"məşğələlərinə 34 saat vaxt verilmişdir **(12)**.

Proqramın məzmunundan aydın olur ki, bilik, bacarıq və vərdişlərin müəyyən edilməsi və reallaşdırılmasında başlıca olaraq 2 istiqamət diqqət mərkəzində saxlanılır:1) Mənimsənilmiş bilik, bacarıq və vərdişlərdən davamlı təhsil prosesində istifadə olunması;2). Qazanılmış bilik və bacarıqlardan praktik fəaliyyətdə istifadə edilməsi.

***Prof. Y.Seyidovun*** redaktəsi ilə nəşr edilmiş V-XI siniflər üçün Azərbaycan dili proqramında qeyd olunur:

*"Üslubiyyat üzrə aparılan məşğələlərdə şagirdlər bilməlidirlər:*

-üslubiyyat anlayışının mahiyyətini;

-funksional üslubların təzahür formalarını;

-fərdi üslubun xüsusiyyətlərini.

"*Üslubiyyat üzrə aparılan məşğələlərdə şagirdlər bacarmalıdırlar:*

-üslubiyyatı dilçilik elminin bir şöbəsi kimi fəqrləndirməyi;

-funksional üslubları bir-birindən fərqləndirməyi;

-fərdi üslubu ayırmağı" **(7, s. 58)**.

Müasir dövrdə fəal təlimin quruluşuna uyğun olaraq hazırlanmış proqramda qeyd olunur ki,.."Tam orta təhsil səviyyəsi (X-XI siniflər) üzrə şagird:

- dinlədiyi fikirlərlə bağlı mühakimələrini əsaslandırır;

- Azərbaycan dilində aparılan tədbirlərdə çıxış və təqdimatlar edir;

- oxuduğu mətnlərin məzmunu və üslubu haqqında rəy və mülahizələrini bildirir; -nitqin müxtəlif üslub və tiplərində mətnlər qurur;

-sərbəst tərcümə bacarığı nümayiş etdirir" **(13).**

DOI:10.30546/gdu.5.2025

Ümumtəhsili başa vuran hər kəs təhsilini müxtəlif formalarda müstəqil davam etdirməli, həyatını, fəaliyyətini istədiyi kimi qurmalı olur. Bunun üçün özünün idraki, hissi və psixomotor imkanlarına əsaslanır, dinləyib-anlama, danışma, oxu və yazı bacarıqlarından istifadə edir. Eyni zamanda cəmiyyətin bir üzvü kimi həyatda praktik fəaliyyət göstərir. Azərbaycan dili təliminin məzmununu, strateji imkanları müəyyənləşdirilərkən bunlar nəzərə alınır.

Mədəni nitqə yiyələnmək üçün dilin yalnız leksik-qrammatik normalarını gözləmək kifayət etmir. Bunun üçün nitq üslubi cəhətdən də düzgün qurulmalıdır.Yəni danışarkən elə sözlər seçilməli, cümlələr elə qurulmalıdır ki, fikir dəqiq vəaydın ifadə oluna bilsin. Danışan və ya yazan işlətdiyi hər bir sözün əhəmiyyətini,onun nəzərdə tutulan fikrin ifadəsi üçün nə dərəcədə yararlı, dəqiq olmasınınəzərə almalıdır. Həm danışıq, həm də yazıda hər hansı bir söz öz həqiqimənasından başqa, digər mənalarda da işlənilir. Mənadan doğan forma rəngarəngliyidilin üslubi imkanları əsasında yaranır ki, bütün bunlar dilin üslubiyyat bəhsində öyrənilir. Şagirdlər Azərbaycan dilinin fonetik, leksik və qrammatik imkanlarını həm nəzəri, həm də praktik cəhətdən öyrənilməli, nitqin dəqiqliyi, yığcamlığı, ahəngdarlığı,bədiiliyi üçün üslubi imkanlardan yerində, ünsiyyətin tələblərinə uyğun istifadə etməyi, ədəbi dilimizin ifadə vasitələrindən konkret şəraitlə bağlı yararlanmağı bacarmalıdır.

Fonetik, leksik, morfoloji, sintaktik normalar ədəbi dilin strukturu iləbağlı olub nitqin düzgünlüyünü təmin edirsə,üslub normaları leksik-qrammatik normaların bir növ törəməsi olub nitqin gözəlliyini, ifadəliliyini, dəqiqliyini artırmaqla ünsiyyəti asanlaşdırır, onun təsirli, cəlbedici olmasını, danışan, oxuyan və dinləyənin ən incə məqamları, mətləbləri ifadə və dərk edə bilməsini təmin edir.

Fonetik vasitələr nitq prosesində işlənmə yerinə, məqamına görə müəyyən üslubi mahiyyət kəsb edir ki, onlardan ən başlıcası ahəngdarlıqdır. Ahəngdarlıq nitqin səlisliyi, gözəlliyi, onun dinləyənə xoş təsir bağışlamasıdır.Məsələn,

*Al ilə ala gözlərin aldadıb aldı könlümü,*
*Alın gör nə al edər, kimsə irişməz alinə* (İ.N)

Dilimiz öz təbiətinə, səslənməsinə görə ahəngdar dillərdən biridir. Bu ahəngdarlığı yaradan bir sıra vasitələr, xüsusiyyətlər vardır ki, onlardan ən başlıcası lüğət tərkibinə daxil olan sözlərin özünəməxsus strukturudur, başqa sözlə, səsdüzümüdür. Xalq zəkasının, müdrikliyinin ümumiləşdirilmiş bədii ifadəsi olan atalar sözü, zərbi-məsəl və aforizmlərdən ünsiyyət prosesində geniş istifadə olunur. Bu yığcam, müdrik, obrazlı ifadələr öz dərin mənaları ilə yanaşı, gözəl səslənməyə də malikdir.Orada səslərin, xüsusən samit səslərin alliterasiyası, saitlərin assonansı deyilişdə ahəngdarlıq yaradır, qulağayatımlı edir. Məsələn,

*Əl mənim, ətək sənin;Gec gələn qonaq öz kisəsindən yeyər; Uşağı yemək böyütməz, fərəh böyüdər; Ərənlər üçəcən deyiblər; Gözələ göz dəyər, qəlbə söz; Gördü hənək, görmədi dəyənək; Kiçikdən xəta, böyükdən əta. İt əl çəkdi motal əl çəkmədi;Çatana çatır, çatmayana bir daş atır;Torpağını torba ilə daşıtdırmaq; Taylı tayını tapmasa, günü ah-vaynan keçər;Çala, çala çalağan olar.*(Atalar sözləri)

Danışıq zamanı üslubi effekt və səlislik yaratmaq, lüzumsuz təkrarlara yol verməmək, fikin daha təsirli,ifadəli və dəqiq ifadə edilməsi məqsədilə rəngarəng sinonimlərdən istifadə olunur ki, onlar nitqin təsir gücünü artırır, emosionallıq və ekspressivlik yaradır ki,onlar incə məqamları ifadə etmək üçün geniş və rəngarəng üslubi imkanlara malikdir. Sinonimləri bilmək, onları nitqdə işlətməyi bacarmaq dili praktik sürətdə və yüksək səviyyədə bilməyin əlamətidir.

Məsələn, *Sübdən axşama kimi Səməd ağaca sərikli çığırardı, bağırardı və ağzına gələni də qardaşına deyərdi.(Y.V.Çəmənzəminli) - Söz*

DOI:10.30546/gdu.5.2025

*bir olar, iki yox, Müqim! Yoxsa Alagözü lap bəbəklərinin içindən çıxaracağam, bildin, qandın, anladınmı? (S.Rəhimov)*

Nitq hissələrinin də dilimizin üslubi cəhətdən zənginləşməsində geniş imkanları vardır.Onlar cümlədə həm öz morfoloji funksiyasını yerinə yetirir,həm də nitqin aydınlığını,yığcamlığını, səlisliyini, təsirliliyini təmin edir.Nitq hissəsinin yaratdığı üslubi çalarlıq onun leksik məna növləri, mənsubiyyət, hal, kəmiyyət, xəbərlik kateqoriyaları üzrə dəyişməsində özünü göstərir.

Şagirdlərin nitqinin üslubca zənginləşdirilməsi üçün qrammatikanın sintaksis hissəsinin xüsusi əhəmiyyəti vardır. Azərbaycan dili tədrisinin başqa sahələrinə nisbətən sintaksisin üstünlüyü ondadır ki, burada ayrı-ayrı mövzuların öyrədilməsi ilə əlaqədar olaraq şagirdlərə üslubi elementlər haqqında məlumat vermək imkanı vardır.Elə bir sintaktik vahid,quruluş yoxdur ki, nitqin üslubca zənginləşməsində bu və ya digər dərəcədə iştirak etməsin. Belə ki, dilin ən ifadəli vasitələri olan obrazlı vahidlər və məcazlar, eyni zamanda, sintaktik-üslubi fiqurlar rəngarəng üslubi imkanlara malikdir.Bu üslubi vasitələr, əsasən, leksikaya (məcazlar, frazeoloji ifadələr və s.) və sintaksisə (cümlə konstruksiyalarının üslubi xüsusiyyətləri, sintaktik fiqurlar və s.) aiddir. Nitqin üslubi rəngarəngliyinin təmin edilməsində dilin bədii təsvir vasitələrinin (metafora, metonimiya, sinekdoxa, epitet, müqayisə, bənzətmə,mübaliğə, tabu sözlər və s.) də rolu böyükdür.

Məktəb kursunda şagirdləri yüksək nitq mədəniyyətinə yiyələndirmək üçün həmin aspekt üzrə aparılan praktik işlərin keyfiyyətini artırmağa xüsusi diqqət yetirilməli,Azərbaycan xalqının zəngin ədəbi irsini, ən gözəl hikmətli parçaları, müdrik kəlamları seçib onlardan yeri gəldikcə istifadə etməyə səy göstərilməlidir.

### *Ədəbiyyat*

1.Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı,2001
2.Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1992
3. Abdullayev A. Üslubiyyat məşğələlərinin metodikası. Bakı,1961
4. K.Əliyev. Azərbaycan ədəbi dilinin praktik üslubiyyatı. B-1992
5. Kojina M. Stilistika russkoqo yazıka. Москва, 1977
6.Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları.Bakı,1999
7.Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün Azərbaycan dili proqramı, Bakı, 2002
8. Qurbanov A. Ümumi dilçilik."Maarif", II cild, Bakı,1993
9. Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı, 1966
10. Rozental D. Praktiçeskaya stilistika russkoqo yazıka. Москва,1974
11.Sadiq Ş, Nəcəfov E, Əsədov A. "Azərbaycan dili" II nəşr,Bakı,2009
12.http://www.tehsilproblemleri.com/?p=11215
13.Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (Dövlət dili kimi) fənn üzrə Təhsil Proqramı (Kurikulimu) (I-XI siniflər) Bakı,2013

## ВАЖНЫЕ СТИЛИСТИЧЕСКИЕ ВОПРОСЫ ПРЕПОДАВАНИЯ ЯЗЫКА: БОГАТЫЙ СЛОВАРНЫЙ ЗАПАС, ВЫРАЗИТЕЛЬНЫЙ ЗАПАС И ЭЛЕГАНТНОЕ ПРОИЗНОШЕНИЕ

***Кулиева Тахира Адуррахман кызы***

***Резюме***

Стилистика – раздел языкознания, изучающий стили речи, стилистические принципы и средства выразительности языка и их отношение к выражаемому содержанию. Здесь чрезвычайно важно для речи определить смысловую окраску и

DOI:10.30546/gdu.5.2025

выразительность, оттенки значения языковых единиц. , изучать и применять на практике стилистика (стилистические нормы ).

**STYLISTIC ISSUES IN LANGUAGE TEACHING: RICH VOCABULARY, EXPRESSIVENESS, AND ELEGANT PRONUNCIATION**

***Guliyeva Tahira Abdurraxman***

***Summary***

Stylistics is a branch of linguistics that studies speech styles, stylistic devices, and expressive means of language, and their relationship to the content being expressed. Here, the most important aspects of speech are to determine the emotionality, expressiveness, and shades of meaning of language units, and to study and apply practical stylistics (stylistic norms).

***Rəyçi: dosent0 Gülarə Hüseynova***
***Daxil olma tarixi18 sentyabr 2025-ci il***